www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-01 (1784) 15 yanvar 2024-cü il



# Azərbaycan Tibb Universiteti yenə birincidir

**Bu tədris ilində də əcnəbi tələbələrin sayına görə ATU ölkə üzrə liderdir**

səh. 2

## Gənc həkim-rezidentlər Milli Orduya xidmətə yola salınıb

səh. 2

## Qanazlığının ən böyük səbəbi dəmir çatışmazlığıdır

səh. 7

## Tələbələrdə "imtahan stresi" niyə yaranır?

səh. 4



## ATU-nun rektoru imtahanın gedişini izləyib

Professor Gəray Gəraybəyli tələbələrlə söhbətləşib, onların fikirlərini öyrənib

səh. 2

## Ailə həkimi təkcə xəstəlikləri müalicə etmir

*Bu modeldə sağlamlıq - həm də sosial və psixoloji olaraq optimal firavanlıq halı kimi qiymətləndirilir*

səh. 5

## Böyrək sancısı insan orqanizmində ən kəskin ağrıdır

*Professor Rauf Nağıyev: Gec mərhələlərdə xəstəyə kömək etmək çətinləşir, xroniki böyrək çatışmazlığı riski artır*

səh. 6



## Qış imtahan sessiyasından yüksək nəticələr gözləyirik

Professor Sabir Əliyev: İmtahan ekspertlərinin fəaliyyətinin qiymətləndirilməsi nəzərdə tutulur

səh. 3

# ATU-nun rektoru imtahanın gedişini izləyib



**Azərbaycan Tibb Universiteti I Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbələri Ailə təbabəti kafedrasında "Klinik maliyyə bacarıqları" fənnindən imtahan veriblər. Universitetin rektoru, professor Gəray Gəraybəyli imtahanın gedişini izləyib.**

İlk dəfə olaraq, OSKİ proqramı ilə tələbələr manikenlərin üzərində müayinələr həyata keçirib. Bu barədə adıçəkilən kafedranın müdiri, professor İbrahim İsayev məlumat verib. O bildirib ki, tələbələrin bu fənnə böyük marağı var, həvəslə öyrənirlər: "Hər qrup iki dəfə gəlməklə, təşkil etdiyimiz treninqlərdə iştirak edib. 3-cü dəfə isə imtahan verdilər. 3-cü kursda qiymətləndirmə 100 balla hesablanır. 10 bal sərbəst işlərə, 10 bal davamiyyətə, 80 bal isə klinik müayinənin aparılmasına görə verilir".

ATU-nun rektoru tədris olunan fənn, eləcə də imtahan prosesi və yaradılmış şəraitlə bağlı tələbələrlə söhbətləşib, onların fikirlərini öyrənib. Tələbələr treninqlərdən və imtahan prosesindən razı qaldıqlarını bildirib, bəzi təkliflərlə çıxış ediblər.

# Səhiyyə Nazirliyi qızılcaya qarşı peyvənd olunmağa çağırır



**2023-cü ilin sonlarından başlayan və hazırda davam edən qızılca xəstəliyinin yerli yayılması ilə əlaqədar ölkə ərazisində əks-epidemik və profilaktik tədbirlərin aparılması davam etdirilir.**

Yaranmış epidemioloji vəziyyətin təhlili göstərir ki, azyaşlı uşaqlarla yanaşı, həmçinin 10 yaşından yuxarı uşaqlar və böyüklər arasında da yoluxma halları baş verir. Bunu da qeyd etmək lazımdır ki, yoluxanların, demək olar ki, hamısı qızılcaya qarşı heç vaxt peyvənd olunmayan və xəstəliyi keçirməyən şəxslərdir.

İnfeksiyanın yerli yayılmasının, xəstəlikdən ağırlaşma və ölüm hallarının qarşısının alınması üçün 10 yaşa qədər uşaqların ölkədə qüvvədə olan Profilaktik peyvəndlər təqviminə əsasən vaksinasiyası ilə yanaşı, qızılcaya həssas 11-40 yaşlı əhali qruplarının da peyvənd olunmasının vacibliyini nəzərə alaraq, Səhiyyə Nazirliyi vaksin preparatlarının alınıb ölkəyə gətirilməsini təşkil edib.

Yüksək yoluxuculuq qabiliyyətinə malik qızılca infeksiyasından qorunmağın ən effektiv yolunun vaksinasiya olduğunu nəzərə alaraq, Səhiyyə Nazirliyi əhaliyə bir daha müraciət edir və qeyd olunan həssas əhali qruplarını qızılca infeksiyasına qarşı peyvənd olunmağa çağırır.

Vaksinasiya üçün yaşayış yerləri üzrə uşaq və böyük əhalisinə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət oluna bilər.

# Azərbaycan Tibb Universiteti yenə birincidir

## Bu tədris ilində də əcnəbi tələbələrin sayına görə ATU ölkə üzrə liderdir

**Dekabrın 26-da "Azərbaycanda beynəlxalq təhsil imkanları" adlı forum keçirilib. Forumda Elm və Təhsil, Xarici İşlər nazirliklərinin, Dövlət Miqrasiya Xidmətinin, həmçinin ali təhsil müəssisələrinin rəhbər şəxsləri, beynəlxalq ekspertlər və əcnəbi tələbələr iştirak ediblər. Tədbirdə Azərbaycan Tibb Universitetini Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev təmsil edib.**

2023-2024-cü tədris ili üzrə əcnəbilərin Azərbaycanda təhsilinə dair hesabat forum iştirakçılarının diqqətinə çatdırılıb. Azərbaycan Tibb Universiteti önceki illərdə olduğu kimi, bu tədris ilində də əcnəbi tələbələrin sayına görə ölkə üzrə liderliyini qoruyub saxlayıb. Qeyd edək ki, hazırda ATU-da 55 ölkədən 2900-ə yaxın əcnəbi vətəndaş təhsil alır.

Forumda, həmçinin "Əcnəbi vətəndaşların cəlbinin təşviqi və təşkili"




və "Beynəlxalq reytinq cədvəllərində iştirak və proqramların akkreditasiyası" mövzularına həsr olunan panellərdə yerli və beynəlxalq ekspertlər çıxışlar edib, panellər maraqlı müzakirələrə səbəb olub. Prorektor Orxan İsayev öz çıxışında beynəlxalq reytinqlər, yerli universitetlərin bu reytinqlərdə iştirakı, Azərbaycan Tibb Universitetinin beynəlxalq akkreditasiya təcrübəsi, keçilən mərhələlər və akkreditasiyanın universitetə qazandırdığı üstünlüklər haqqında öz fikirlərini panel iştirakçıları ilə bölüşüb.

Tədbirin sonunda 2023-cü il üçün Fəaliyyət Planı üzrə əcnəbilərlə iş sahəsində fərqlənən universitetlərin reytinq cədvəli açıqlanıb və fərqlənən universitetlər təltif olunub. 15-dən çox meyar üzərindən tərtib edilən reytinq cədvəlində Azərbaycan Tibb Universiteti ilk yeri tutub və bu uğuruna görə Elm və Təhsil Nazirliyi tərəfindən təşəkkürnamə ilə mükafatlandırılıb. Həmçinin, ATU-nun məzunu Drickesha Latecia Yasha Aska təhsil müddətində ictimai fəallığı ilə fərqləndiyinə görə Elm və Təhsil Nazirliyi tərəfindən təşəkkürnamə ilə təltif olunub.

# Tələbələrin elmi fəaliyyətə marağı artırılır



**Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Tələbə elmi-tədqiqat işi necə aparılmalıdır?" mövzusunda seminar keçirilib. Seminarda çıxış edən ATU-nun Elmi işləri üzrə prorektoru, professor Rauf Bəylərov TEC konfranslarının tələbələrin gələcək fəaliyyəti üçün böyük əhəmiyyət daşıdığını vurğulayaraq tədbirin çox aktual mövzuya həsr edildiyini bildirib:**

"Hər bir ölkənin yüksəlişi elmin inkişafından asılıdır. Sevindirici haldır ki, Tibb Universitetinin tələbələri arasında elmə maraq getdikcə artmaqdadır. Bu tip tədbirlərimiz məhz həmin marağın gücləndirilməsi, gənclərin inkişafı baxımından olduqca faydalıdır". Bu günlərdə Özbəkistanın Səmərqənd şəhərində tibb elminin fundamental və kliniki fənləri üzrə daxili-distant formatda keçirilən beynəlxalq tələbə olimpiadasına toxunan prorektor əlavə edib ki, Mərkəzi Asiyanın ən qədim tibb universitetində baş tutan həmin tədbirdə ATU-nun tarixində ilk dəfə olaraq beynəlxalq qalibiyyət əldə edilib: "Belə ki, II Müalicə-profilaktika fakültəsinin tələbəsi Gülgün Məmmədli I, Stomatologiya fakültəsinin tələbələri Süsən Yaqubova və Emel Mahalova II, I Müalicə-profilaktika fakültəsinin tələbəsi Tamara Mahalova isə III yerə layiq görülüblər. Ölkəmizə qalibiyyətlə dönən tələbələrimizi, o cümlədən Tələbə Elmi Cəmiyyətini bu böyük nailiyyət münasibətilə təbrik edir və yeni-yeni uğurlar arzulayıram".

TEC-in hazırkı durumu və gələcək fəaliyyət proqramı haqqında məlumat verən Cəmiyyətin Elmi rəhbəri, tibb elmləri doktoru Müşviq Həsənov bildirib ki, təşkilatın sıraları ildən-ilə genişlənir və qaydalar da günün tələblərinə uyğun olaraq yenilənir. Qeyd edib ki, bu ənənənin davamı kimi yaxın zamanda "Elmi rəhbər necə olmalıdır?" mövzusunda əlavə bir seminarın keçirilməsi nəzərdə tutulub. Bundan başqa, TEC-in fəaliyyət proqramına daxil olan məsələlərdən biri də qabaqcıl ölkələrin tibb mütəxəssisləri ilə təcrübələrin bölüşdürülməsi, universitetlər və cəmiyyətlər arasında koordinasiyanın qurulmasıdır ki, bu da tibbin aktual sahələrinə dair elmi araşdırmaların aparılması və tibb təhsilinə inteqrasiyası baxımından əhəmiyyətlidir.

Tədbirdə çıxış edən TEC-nin sədri Həmid Səfərli, fakültə dekanları Elşad Novruzov, İsrail Məhərrəmbəyli, Elmira Əliyeva, Fərəh Mədətli, fakültə TEC-in rəhbəri Aqil Əliyev və başqaları tədqiqat işi aparan tələbələr üçün universitetdə əlverişli şəraitin olduğunu söyləyiblər. Bildiriblər ki, tələbələr öz axtarışlarını indi daha müasir üsullarla həyata keçirir və daha aktual mövzular seçirlər. Bundan başqa, ənənəvi olaraq hər il keçirilən TEC-in konfranslarında çıxış edən tələbələrin elmi məruzələri toplu halında çap olunur ki, bu da onların marağına səbəb olur.

Çıxışlarda vurğulanıb ki, tələbələrin elmi fəaliyyəti tədris prosesinin ən vacib komponentlərindən biridir. Tədqiqat işlərinin yerinə yetirilməsi prosesində tələbələrə müxtəlif təcrübələr, sorğular, tədqiqatlar, hesablamalar aparmaqla həll edilməli olan konkret tapşırıqlar verilir. Bu tapşırıqların yerinə yetirilməsi üçün tələbələrdən müəyyən bilik və bacarıqlara malik olmaq, ədəbiyyatla işləmək, hesablamalar aparmaq, qrafiklər qurmaq, müxtəlif proqramlarla işləmək bacarıqları tələb olunur. Bu işlərin öhdəsindən gəlməkdə tələbələrə elmi dərəcəsi olan, istehsalat təcrübəsinə malik ixtisaslaşmış müəllimlər köməklik və rəhbərlik edirlər.

Toplantıda TEC-in fəaliyyətinin daha da yaxşılaşdırılması üçün bir sıra təklif və rəylər irəli sürülüb.

**Hərbi tibb fakültəsinin rezidentura və tibb heyətinin təkmilləşmə kursunda hərbi biliklərə yiyələnən və tibb sahəsində ixtisaslaşaraq yeni təyinat alıb ordu sıralarına yollanan məzunların növbəti buraxılışı olub.**

# Gənc həkim-rezidentlər Milli Orduya xidmətə yola salınıb



Fakültənin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov bildirib ki, hazırda rezidentura təhsilini 26 məzun başa vurur. O, təhsil aldıqları müddətdə çalışqanlığı, nizam-intizamı, yüksək tərbiyə və mənəvi dəyərləri ilə seçilən məzunları təbrik edərək vurğulayıb ki, rezidentlərə peşəkar mütəxəssislərin təhsil proqramlarına uyğun dərs keçildiyi üçün onların hazırlığı yüksək səviyyədədir. Qeyd edib ki, rezidentlərimiz hazırda respublikanın xəstəxanalarında və diaqnostika mərkəzlərində əsgər və zabitlər, həmçinin onların ailə üzvləri ilə yanaşı, əhalinin digər təbəqələrinə də yüksək səviyyəli tibbi xidmət göstərirlər. Fakültə rəisi məzun rezidentlərin Milli Ordumuzda şərəflə xidmət edəcəklərinə əminliyini söyləyib.

Toplantıda çıxış edən Müdafiə Nazirliyinin Baş Tibb İdarəsinin rəisi, tibb xidməti polkovniki Vüqar Mürsəlov gənc həkim-rezidentləri Azərbaycan Ordusunda xidmətə başlamaları münasibətilə təbrik edib və onların hər birinə uğurlu fəaliyyət arzulayıb.

Məzunlar adından çıxış edən rezident Fərid Eldarlı bu əlamətdar gündə onlara dəstək olan hər kəsə, xüsusilə də Hərbi tibb fakültəsinin kollektivinə təşəkkürünü bildirib.

Sonra fakültənin kadrlar rəisi, mayor Çinarə Qasımova 2022/2023-cü tədris ili üçün yekun attestasiyadan müvəffəqiyyətlə keçərək rezidenturanı bitirmiş şəxslərə müvafiq ixtisaslar üzrə həkim-mütəxəssis ali peşə dərəcəsi və diplomun verilməsi barədə Səhiyyə Nazirliyinin, həmçinin zabitlərin müvafiq vəzifələrə təyin olunması haqqında Müdafiə Nazirliyinin əmrlərini oxuyub.

Tədbirdə Müdafiə və Ədliyyə nazirliklərinin Baş Tibb idarələrinin, Baş Klinik Hospitalın, Milli Müdafiə Universitetinin, eləcə də ATU-nun nümayəndələri iştirak edib.

**Müsahibimiz ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevdir. Onunla ilayrıcında görüşdük. Ötən ili dəyərləndirdik, bu ildən söhbət açdıq.**

# Qış imtahan sessiyasından yüksək nəticələr gözləyirik

## Professor Sabir Əliyev: İmtahan ekspertlərinin fəaliyyətinin qiymətləndirilməsi nəzərdə tutulur

**- Sabir müəllim, başa vurduğumuz 2023-cü ildə Azərbaycan Tibb Universitetində tədrisin ümumi vəziyyətini necə qiymətləndirirsiniz? Ötən il universitetimizin həyatında hansı əlamətdar hadisələrlə yadda qaldı?**

- Təbiidir ki, hər tədris ilinə əsas hazırlıq tədris ilinin başlanğıcında, yəni sentyabrda yekunlaşır. Aidiyyəti dekanlıqlar, kafedralar demək olar ki, tədrisin vəziyyətinin attestasiyasını aparır, tədrisə hazırlığın səviyyəsini yoxlayırlar. Bu proses ilk növbədə tədris şəraitinin hansı vəziyyətdə olmasından asılıdır. Əvvəlcə proqrama uyğun tematik mövzular kafedra iclaslarında təsdiqlənir və hər il kafedra tərəfindən tərtib olunan yeni mövzular əlavə edilir. Əgər təməl kafedralarda laboratoriya işləri, eksperimental tədqiqat varsa, yoxlanılmalıdır. Kliniki kafedralarda isə proqrama, tematik mövzuya uyğun xəstələrin olması haqqında məlumat verilməlidir. Onu da bildirməliyəm ki, nəzəri kafedralarla müqayisədə kliniki kafedralarımızda tematik mövzuların xəstələr üzərində tələbələrə tədrisində müəyyən problemlər var. Düşünürəm ki, gələcəkdə klinikalarımızda xəstələrin sayını artıra bilsək, tələbələr nəzəri biliklərini xəstə üzərində daha da təkmilləşdirər, eyni zamanda praktik cəhətdən hazırlıqları yüksələr.

Azərbaycan Tibb Universitetində həyata keçirilən yeniliklərdən biri də cari tədris ilində Tibb və sağlamlıq elmləri və Təcili tibb kafedralarının fəaliyyətə başlamasıdır. Tibb və sağlamlıq elmləri kafedrasında tədrislə yanaşı, universitetin professor və müəllim heyətinə təlimlər də keçilir. Təcili tibb kafedrasının yaradılmasında isə əsas məqsəd təcili tibbi yardım sisteminin təkmilləşdirilməsidir. Proqramların dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğunlaşdırılması baxımından yeni kafedranın təşkilini məqsədəuyğun hesab etdik. Yaz semestrində isə stomatologiya ixtisası üçün Ortodontiya kafedrası fəaliyyətə başlayacaq.

2023-cü il həm də universitetimizin növbəti attestasiyadan da uğurla keçməsi, beynəlxalq reytinq cədvəlində yüksək yer tutması, eləcə də "Heydər Əliyev İli" çərçivəsində beynəlxalq konqres və konfranslara ev sahibliyi etməsi kimi əlamətdar hadisələrlə yadda qaldı.

**- Cari tədris ilinin aralıq imtahanlarının nəticələri və payız semestrinin qış imtahan sessiyasına hazırlıq hansı səviyyədədir? Gözləntiləriniz nədir?**

- Aralıq imtahanlarının nəticəsi qənaətbəxşdir. Ancaq müstəsna hallar var ki, bəzi tələbələr vaxtında imtahanlara gəlmir. İmtahan Mərkəzinin direktoru bu haqda bizə məlumat verdikdə, bütün dekanlıqlara tapşırdıq ki, tələbələrlə ciddi iş apararaq onların imtahanlara vaxtında gəlməsini təmin etsinlər. Çünki bu gecikmələr həmin tələbələrin imtahanlara buraxılmaması və qiymətlərinin sıfırlanması ilə nəticələnir. Təşkilati iş gücləndirilməlidir ki, bütün tələbələr bu imtahanlarda iştirak edə bilsinlər. Problemin aktuallığını nəzərə alaraq bu yaxınlarda ATU-nun imtahan ekspertlərinin geniş tərkibdə görüşünü keçirdim. Həmin görüşdə də xatırlatdım ki, tədrisin keyfiyyətinin yüksəldilməsi daim universitet rəhbərliyinin qarşısında duran əsas məsələlərdəndir. Qiymətləndirmə prosesinin daha ədalətli aparılması üçün test suallarının düzgün tərtibi çox önəmlidir.

Payız semestri ilə bağlı qeyd edə bilərəm ki, istər universitet rəhbərliyi, tədris şöbəsi, istərsə də dekanlıqlar və kafedralar ilboyu tədris və tədris-metodiki işin keyfiyyətini yaxşılaşdırmağa çalışıb. Beləliklə, nəinki ölkəmizdə, hətta dünyanın inkişaf etmiş ölkələrində rezidentura və mağistraturada təhsilini davam etdirə bilən və həmçinin praktik sahədə fəaliyyət göstərən gənc həkim, hərbi həkim, əczaçı və hərbi feldşer kadrlarını hazırlamağı qarşımıza əsas məqsəd kimi qoymuşuq. Elə hazırlıq işləri də bu amillər nəzərə alınmaqla aparılıb. Ona görə qış imtahan sessiyasından da yüksək nəticələr gözləyirik.

**- Məlumdur ki, imtahanların kompüterlə aparılması obyektivliyin və şəffaflığın təmin olunmasında, subyektiv təsirlərin aradan qaldırılmasında mühüm rol oynayır. Bu istiqamətdə görülən işləri qənaətbəxş hesab etmək olarmı?**

- Doğrudur, imtahanların bu cür aparılması obyektivliyi, şəffaflığı, ədalətli olması, tələbələr üçün bərabər şəraitin yaradılması, subyektiv təsirlərin aradan qaldırılması, ictimai rəyin müsbət istiqamətdə dəyişməsi ilə fərqlənir. Eyni zamanda test üsulunun təkmilləşdirilməsinə böyük ehtiyac duyulur. Belə ki, tərtib edilən testlərin düşündürücü olması, onlara situasiya məsələlərinin daxil edilməsi, tapmaca, əzbərləmə elementlərinin aradan götürülməsi, ilbəil məxfi sualların artırılması təmin edilməlidir.

Təəssüf ki, bəzən proqrama uyğun olmayan testlər hazırlayaraq proqramı qabaqlayırlar. Adətən ara sorğularında tələbələrə mühazirə kursunun materialları yox, yalnız məşğələdə keçilən mövzulara dair suallar verilməlidir. Ara sorğularına proqramdan kənar suallar salınmamalıdır. Çünki kompüterlə gedən imtahanlarda düzgün qoyulmamış bir-iki sual onlarla, yüzlərlə tələbəyə düşür və haqlı narazılığa səbəb olur. Belə sualları vaxtında ləğv etməyə çalışırıq ki, gələcəkdə imtahan verən tələbələrin qarşısına çıxmasın. Bu cür hallar bəzi kafedralarda müəllimlərin, ekspertlərin məsuliyyətsizliyi ucbatından baş verir.

**- Yeri gəlmişkən, bəzən test suallarında müəyyən qüsurların olması haqqında danışılır. Həmin qüsurların aradan qaldırılması üçün hansı addımlar atılır? Kafedraların, test tərtibçilərinin və ekspertlərin üzərinə hansı məsuliyyət düşür?**

- Təəssüf hissi ilə bildirməliyəm ki, bəzi test sualları hələ də qüsurludur, hər tədris ilində testlərin 20-25 faizinin yenilənməsi tələbinə bəzi kafedralarda əməl olunmur. Narahatlıq doğuran məsələlərdən biri də testlərin tələbələrə sızmasıdır. Bu şikayətlər İmtahan Mərkəzi və kafedralar üçün ciddi bir siqnaldır və lazımı ölçülər götürülməlidir. Öz işinə məsuliyyətlə yanaşan kafedralarda testlərin tərtibində heç bir problem yaranmır, həmçinin tələbələrin həmin fənləri mənimsəmə səviyyəsi də qaydasında olur. Ancaq vəziyyət bütün kafedralarda belə deyil. Bir məqamı da vurğulamaq istərdim ki, imtahan suallarını hazırlayan kafedraların ekspertlərinin üzərinə böyük məsuliyyət düşür. Onlar ildə 4 dəfə - iki dəfə aralıq sorğularına, 2 dəfə isə imtahanlara test sualları hazırlamaqla gərgin işləyirlər. Hörmətli rektorla da bu barədə söhbətimiz olub. Nəzərdə tutmuşuq ki, imtahan ekspertlərinin işinə də müvafiq qiymət verilsin.

**- Universitetimizdə təhsil almaq üçün müraciət edən xarici tələbələrin sayı ildən-ilə artır. Onlarla iş necə tənzimlənir?**

- Xarici tələbələrlə işlərimiz yaxşı gedir. Ötən illərdə davamiyyətdə müəyyən narahatlıqlar nəzərə çarpsa da, bu il ciddi problemlərlə rastlaşmadq. Sevindirici haldır ki, xarici tələbələrimizin sayı da ilbəil artır. Bu isə onlara dərs keçən müəllimlərin səviyyəsinin yüksəldilməsini zərurətə çevirir. Rektorumuz bununla bağlı universitetdə əlverişli şərait yaradıb. Xarici dili yüksək səviyyədə bilən müəllimlər universitetə dəvət edilir, müəllimlərin hazırlıq səviyyəsinin yüksəldilməsi üçün dərslər təşkil olunur. Universitetimizin beynəlxalq sertifikasiyadan keçərək ölkə hüdudlarından kənarda da kifayət qədər tanınması üstünlüklərimizi artırır. Belə ki, daha çox sayda əcnəbi vətəndaş universitetimizə maraq göstərir. Statistikaya nəzər yetirsək görərik ki, onların əksəriyyəti Pakistan və Hindistandan gəlir. İngilis dili bilgiləri də normaldır. Müəllimlərimiz gərək həmin tələbələrin səviyyəyə uyğun tədris apara bilsinlər. Xarici tələbələr Azərbaycan dilini də yaxşı öyrənməlidir. Ona görə də hazırlıq kurslarında çalışan Xarici dil kafedrasının, xüsusən Azərbaycan dili kafedrasının müəllimləri həmin tələbələri elə hazırlamalıdırlar ki, onlar klinikalarda xəstələrlə ünsiyyət zamanı Azərbaycan dilində sorğu aparmaq qabiliyyətinə malik olsunlar.



**- Azərbaycan Tibb Universitetinin bir özəlliyi də odur ki, burada tibbi təhsillə paralel olaraq müalicə işləri də aparılır. Universitetin müxtəlif yönümlü klinikalarında hazırkı durum necədir?**

- Müalicə işlərindən söz düşmüşkən, əvvəlcə onu bildirim ki, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının kliniki bazası olan Bakı Sağlamlıq Mərkəzində Tədris Simulyasiya Mərkəzi yaradılıb. Filialla universitetimiz arasında mövcud olan müqaviləyə əsasən, tələbələrimiz və rezidentlərimiz burada bütün ixtisaslar üzrə praktik bacarıqlarını təkmilləşdirir, yeni bacarıqlara yiyələnirlər.

Mərkəzin endoskopiya, USM, ginekologiya, reanimasiya, xəstəyə qulluq və təcili yardım otaqlarında robot-simulyatorlar üzərində manipulyasiyalar aparan tələbələr, həmçinin 5 bacarıq fənninin - Venadaxili inyeksiyalar, Təcili tibbi yardım, Dispanserizasiya, Fiziki müayinə, Təməl ürək və ağciyər reanimasiyası fənlərinin 3 mərhələli şəkildə həyata keçirilən tədrisində iştirak edirlər.

Tədris Simulyasiya Mərkəzində xarici ölkələrin səhiyyə mütəxəssislərinin zəngin təcrübəsindən yararlanaraq beynəlxalq standartlara uyğun olan təlim proqramlarından istifadə edilir.

Klinikalarımızın hazırkı durumuna gəldikdə isə, etiraf etməliyik ki, müəyyən çətinliklər var. Əsas çətinlik isə xəstələrin yetərincə olmamasıdır. Universitet rəhbərliyi də bu problemlə ciddi məşğuldur, rektor klinika rəhbərlərinin qarşısında konkret vəzifələr qoyub. Artıq Tədris Cərrahiyyə Klinikasında müəyyən irəliləyişlər nəzərə çarpır, müraciət edən pasiyentlərin sayı çoxalmaqdadır. Amma hələlik Tədris Terapevtik Klinikada xəstələrin sayını artıra bilməmişik. İnanıram ki, yaxın gələcəkdə terapiya yönümlü klinikada da xəstələrin sayının artırılması və kliniki kafedraların müəllimlərinin daha aktiv şəkildə müalicə işinə cəlb edilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görüləcək. Nəticədə tələbələrin də praktiki vərdişlər qazanmasına, xəstə üzərində işləməsinə şərait yaranacaq.

**Arif MƏMMƏDLİ**

**2023-cü ildə ATU-da təlim-tədris prosesləri ilə yanaşı, elmi tədqiqatlar da davam etdirilib. Əldə olunan nəticələr yerli nəşrlərdən başqa, beynəlxalq indeksləmə bazalarına daxil olan jurnallarda da işıq üzü görüb.**

# Alimlərimizin elmi işləri nüfuzlu jurnallarda dərc edilib




Belə ki, Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov və ETM-in Elektron mikroskopiya şöbəsinin böyük elmi işçisi, dosent Fuad Rzayevin həmmüəllifləri ilə 2023-cü ildə 29 elmi əsər, o cümlədən 1 beynəlxalq patent, 1 monoqrafiya və 13 məqalə Web of Science, Scopus bazalarına daxil olan yüksək impakt faktorlu jurnallarda nəşr olunub. Mühüm nəticələr əsasən ATU-da işıq və elektron mikroskopik (TEM) üsullardan istifadə olunmaqla tədqiq olunan obyektlərin (qocalıqdan asılı olaraq siçovulların beynində baş verən dəyişikliklər, parazitlər, yeni sintez olunan nanohissəciklər və maddələrin bioloji aktivliyi, müxtəlif nanozərrəciklərin qida zəncirinin ayrı-ayrı komponentlərində toplanması və orqanizmdə yaratdığı patoloji dəyişikliklər, bitkilərin müxtəlif stres şəraitində xloroplastlarda baş verən dəyişikliklər və s.) ultrastruktur səviyyədə araşdırılmasından alınıb. Onu da qeyd etmək lazımdır ki, həmin tədqiqatlarda ATU əməkdaşları ilə yanaşı, həm yerli (BDU, ADNSU, Neft-Kimya Prosesləri İnstitutu, Gəncə Dövlət Universiteti, Radiasiya Problemləri İnstitutu, Zoologiya İnstitutu, Geologiya və Geofizika İnstitutu, Fizika İnstitutu, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu), həm də xarici universitet və təşkilatların (Ohayo Tibb Universiteti (ABŞ), Sivas Cümhuriyyət Universiteti (Türkiyə), Kent Dövlət Universiteti (ABŞ), İlia Dövlət Universiteti (Gürcüstan), İvane Beritashvili adına Eksperimental Biotibb Mərkəzi (Gürcüstan), New Vision Universiteti (Gürcüstan), Harvard Universitetinin Tibb Kolleci (ABŞ), Təbriz Tibb Elmləri Universiteti (İran), Ege Universiteti (Türkiyə), Queen Elizabeth Hospitalı (Çin), Bharathiar Universiteti (Hindistan), Szeged Universiteti (Macarıstan), Taif Universiteti (BƏƏ) və s.) alimləri də iştirak ediblər.

# Düzgün qamət sağlamlığın əsas şərtlərindən biridir

**Neyrocərrahiyyə kafedrası Rezidentura və magistratura şöbəsi ilə birgə Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün neyrocərrahiyyəyə dair növbəti seminar keçirib. Seminara moderatorluq edən şöbənin müdir müavini, assistent Namiq Xəlilov bu dəfəki mövzunun onurğa xəstəliklərinin konservativ və ya cərrahi əməliyyatının planlaşdırılmasında sagittal balansın roluna həsr edildiyini bildirib.**



Bundan sonra Neyrocərrahiyyə kafedrasının müdiri, dosent Rövşən Xəlilzadə "Sagittal balans" mövzusunda çıxış edib. Məruzəçi qeyd edib ki, sagittal balansın tibdə əhəmiyyəti düzgün duruş və fəqərə sütununun doğru quruluşunu təmin etməkdən irəli gəlir. Bu, fəqərə sütununun üstünlüyünü və mərtəbəsini qorumağa kömək edir və qamət quruluşunun pozisiyasının istiqamətini tənzimləyir: "Sagittal balansın düzgün qurulması və qorunması fiziki fəaliyyətlər zamanı və gündəlik həyatda fəqərə sütununun qorunmasına kömək edir. Bu, yüklərin düzgün şəkildə paylanmasına və fəqərə sütununun normal funksiyasına təsir göstərir. Sagittal balansın qorunması bel ağrıları və digər əzələ problemlərinin qarşısını almağa kömək edə bilər. Çünki bu, fəqərə sütununun düzgün pozisiyası və dəstəyini təmin etməklə əlaqəlidir. Fəqərə sütunu sinir sistemində əhəmiyyətli bir rol oynayır. Sagittal balansın qorunması nevropatik sistemlərin normal fəaliyyətini təmin etməyə kömək edir və sinir impulslarının düzgün şəkildə ötürülməsini saxlayır".

II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli məruzə ətrafında çıxış edərək vurğulayıb ki, sagittal balans bel problemlərini müalicə edən bütün praktikantlar və xüsusilə əməliyyatdan əvvəlki dövrdə cərrahlar üçün nəzərə alınmalı olan bir amildir.

Geniş diskussiya şəraitində keçən seminarda mövzuya dair suallar məruzəçi tərəfindən ətraflı cavablandırılıb.

# Uşaq cərrahlığı kafedrasında kitabxana guşəsi yaradılıb



**Bu günlərdə Tədris Cərrahiyyə Klnikasının Uşaq cərrahiyyəsi şöbəsində kitabxana guşəsinin açılışı olub. Açılışda kafedra və klinikanın əməkdaşları, Azərbaycan Uşaq Cərrahları Assosiasiyasının bir qrup üzvü iştirak edib.**

Kafedranın müdiri, əməkdar həkim, professor Ramiz Poluxov çıxış edərək uzun illərdi ki, belə bir guşə yaratmaq arzusunda olduqlarını bildirib: "Təqaüdə çıxan və dünyasını dəyişən əməkdaşların kitabları kafedraya hədiyyə edilirdi və xüsusi guşə olmadığı üçün kitablar gənc həkimlərə verilirdi. Amma artıq kiçik də olsa guşə yaratdıq və bu guşəni genişləndirərək kitabxanaya çevirəcəyik. Nəticədə tələbələr, rezidentlər və eləcə də həkimlərimiz üçün istənilən vaxt uşaq cərrahiyyəsinə dair bütün ədəbiyyatlar əlçatan olacaq".

Qeyd edək ki, bu guşənin yaranmasına kafedrada və universitetin ictimai işlərində böyük əməyi olan professor Elmira Pənahovanın kitablarının onun qızı, klinikanın Qəbul və tibbi koordinasiya şöbəsinin müdiri Lamiyə Məmmədova tərəfindən bağışlanması xüsusi bir təkan verib. Hazırda guşədə uşaq cərrahiyyəsi və təbabətin bütün sahələrini əhatə edən 200-dən çox çeşiddə kitab var ki, bunlardan 170-dən çoxu Elmira xanımın kitablarıdır.

Tədbirdən sonra Azərbaycan Uşaq Cərrahları Assosiasiyasının ümumi iclası keçirilib. İclasda açıq səsvermə ilə assosiasiyanın strukturunda dəyişikliklər edilib və idarə heyətinin tərkibi seçilib.

**Məlumat verdiyimiz kimi, Azərbaycan Tibb Universitetinin nəzdində beş klinik psixoloqun fəaliyyətini əhatə edən psixoloji mərkəz yaradılıb. Belə ki, ATU-nun Tədris Terapevtik Klinikasında üç, Lökbatan poliklinikasında bir və Yasamal rayonunda yerləşən 16 saylı poliklinikada bir nəfər mütəxəssis peşəkar yardıma ehtiyacı olanları qəbul edir. Azərbaycan, rus və ingilis dillərində konsultasiyalar aparan bu mərkəzin həkimləri professor-müəllim və işçi heyətinə, o cümlədən tələbələrə psixoloji yardım göstərir.**

# Tələbələrdə "imtahan stresi" niyə yaranır?

## Psixoloq bu vəziyyəti aradan qaldırmaq yollarından danışır



Onlardan biri - Lökbatan Tibb Mərkəzinin psixoloqu Türkan Əliyeva tələbəlik həyatına xas olan "imtahan stresi" mövzusunda qəzetimizə danışıb. Bildirib ki, stres - insanın həyatında və ətrafında baş verən hadisələrə psixoloji cavab reaksiyasıdır: "Burada emosional-zehni və fiziki reaksiya nəzərdə tutulur. Stres orqanizmin gərgin və təhlükəli vəziyyətə reaksiyasıdır. Bu zaman beynin göndərdiyi siqnallar nəticəsində ifraz olunan külli miqdarda hormon bütün orqanizmdə dövr edir. Ürək döyüntüləri artır, qan təzyiqi yüksəlir, tənəffüs tezləşir, əzələlərdə gərginlik yaranır. Stresli vəziyyət keçib getdikdə, orqanizmin fəaliyyəti normallaşır. Müsbət stres insanı dərhal hərəkətə keçməyə, yaxud reaksiya verməyə təşviq edir. Mənfi stres isə insana emosional, fiziki və əqli zərər verə bilər".

İmtahan stresinin nədən yarandığına aydınlıq gətirən Türkan xanım söyləyib ki, o, öyrənilən bilik və bacarıqların imtahan zamanı istifadə edilməsini əngəlləyən təşviş halıdır: "Həmin dövrdə imtahanın gedişatından daha çox imtahanın nəticəsinə köklələndikdə və imtahanın nəticəsini fəlakətləşdirdikdə, imtahan stresi yaranır. Bu isə bilik və bacarıqları göstərə bilməklə bağlı güvənsizlik hissi əmələ gətirir, uğurun aşağı düşməsinə səbəb olur. Bəzən bacarıqların azlığı, yaddaş zəifliyi, diqqət əksikliyi, görmə, oxuma və dinləmə qabiliyyəti zəif olan şəxslərə də rast gəlinir. Bu zaman tələbə öz bacarığının az olduğunun fərqinə varır və onda qeyri-müəyyənlik düşüncəsi yaranır, oxumaq həvəsi azalır, artan imtahan stresi uğursuzluğa gətirib çıxarır".

T.Əliyeva imtahan stresi ilə yanaşı gedən psixoloji problemlərdən və stresin aradan qaldırılması yollarından da bəhs edib: "Sosial təşviş pozuntusu diqqət əksikliyi və hiperaktivlik, obsessiv kompulsiv pozuntu, depressiya, ümumi təşviş pozuntusu, imtahan stresinə yol açan ümumi amillərdir. İmtahana hazırlaşarkən vaxtı düzgün dəyərləndirmək, yaxşı qidalanmaq, yuxu rejimini qaydaya salmaq lazımdır. Nəfəs texnikasından istifadə etməklə də imtahan stresini azaltmaq mümkündür. Bununla hər gün 15-20 dəqiqə məşğul olduqda, qanda oksigenin miqdarı artır və gərginlik azalır".

Psixoloq qeyd edib ki, imtahanla bağlı yaranan fizioloji gərginliyi bu yolla aşağı salmaq mümkündür. Amma əgər vəziyyət tələbənin nəzarətindən çıxıbsa və o heç bir şəkildə stresdən təkbaşına qurtula bilmirsə, mütəxəssisə müraciət etməyi məsləhətdir.

# Əməkdaşımız Pakistandan mükafatlarla qayıdıb




**Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının dosenti, t.e.d, vitreoretinal cərrah Tural Qəlbinur bu günlərdə Pakistanın Lahor şəhərində keçirilən 41-ci Beynəlxalq Oftalmologiya və 7-ci Asiya Sakit Okean regionu ölkələri Travmatoloji Cəmiyyətinin konfranslarında iştirak edib.**

Professor Hussain Ahmed Xaqanın dəvəti ilə Pakistanda olan T.Qəlbinur 4 maraqlı mövzu ilə çıxış və 1 paneldə moderator kimi iştirak edib. O, konfransda xüsusi mükafatlarla təltif olunub. T.Qəlbinurun sözlərinə görə, Pakistanda keçirilən tədbir 2023-cü ilin son beynəlxalq oftalmoloji konfransı olub. Ümumiyyətlə, bu il ərzində o, Misir, Qırğızıstan, Özbəkistan, İtaliya və Türkiyədə keçirilən beynəlxalq konfranslara ardıcıl olaraq dəvətli məruzəçi kimi qatılıb. Xatırladaq ki, əməkdaşımız ötən il də Pakistanda keçirilən eyniadlı konfransda dəvətli məruzəçi və moderator kimi Azərbaycanı təmsil edib.

Qeyd edək ki, Tural Qəlbinur 2001-ci ildə Azərbaycan Tibb Universitetini bitirib. 2002-2005-ci illərdə Türkiyə Cümhuriyyətində Qureba Vəqfi Təhsil və Araşdırma Xəstəxanasının Göz xəstəlikləri kafedrasında, 2006-2008-ci illərdə İsrailin Hadassah-Hebrev Tibb Universitetində və 2008-2010-cu illərdə Kanadanın Toronto Universitetində vitreoretinal cərrahiyyə üzrə təhsil alıb. Azərbaycan Oftalmologiya Cəmiyyətinin, Türk Oftalmologiya Dərnəyinin, Amerika Vitreoretinal Cərrahlar Cəmiyyətinin, Avropa Vitreoretinal Cəmiyyətinin, Misir və digər ölkələrdə fəaliyyət göstərən vitreoretinal cərrahiyyəyə bağlı dərnəklərin üzvüdür.

# Ailə həkimi təkcə xəstəlikləri müalicə etmir

## Bu modeldə sağlamlıq - həm də sosial və psixoloji olaraq optimal firavanlıq halı kimi qiymətləndirilir

**Son dövrlər ölkəmizdə bir sıra yeni sahələr formalaşır ki, onların içərisində ailə həkimliyi institutu xüsusi yer tutur. Əhatə dairəsinin çox geniş olduğunu da nəzərə alsaq, bu yeni sahənin mahiyyətini, əhəmiyyətini cəmiyyətə daha yaxşı anlatmağa böyük ehtiyac var. Ona görə də mütəxəssisə müraciət etmək qərarına gəldik. Suallarımızı ATU-nun Ailə təbabəti kafedrasının müdiri, Əməkdar elm xadimi, Əməkdar həkim, tibb elmlər doktoru, professor İbrahim İsayev cavablandırdı.**

“Ailə cəmiyyəti əmələ gətirən kiçik bir qrup olmaqla, insanın doğulduğu və ən əsas ehtiyaclarının qarşılandığı, birgə yaşayışa hazırlandığı məkandır. Bu qrupda insanlar bir-birinə qan və evlilik bağı ilə bağlanmış iki və daha çox sayda üzvdən ibarət olmaqla, bir-biriləri ilə bioloji, psixoloji, sosial əlaqələri və mənəvi qarşılıqlı təsirləri ilə münasibət qurur. Beləliklə, ailə birlikdə yaşayan üzvlərin cinsi, psixoloji, sosial və iqtisadi ehtiyaclarının qarşılandığı, cəmiyyətə uyğunlaşma və iştiraklarının təmin və təşkil edildiyi məkana çevrilir” – deyən müsahibimiz, əvvəlcə “ailə həkimliyi nədir” – sualına aydınlıq gətirdi. Qeyd etdi ki, ailə həkimliyi fərdlərə və bütövlüklə ailələrə mütəmadi və hərtərəfli ilkin səhiyyə xidməti göstərən, bütün yaş qruplarını, hər iki cinsi, bütün sistem və xəstəlikləri əhatə edən bir tibbi xidmət modelidir. Belə ki, səhiyyənin birinci mərhələsində əhaliyə ilkin səhiyyə xidməti göstərən tibb müəssisələrində yaradılan ailə həkimliyi səhiyyə maarifi, profilaktik xidmət, xəstələnmə hallarında ilk olaraq müraciət edilən və ambulator tibbi xidmət göstərən quruluşdur. Ailə həkimləri birinci pillə tibb xidməti müəssisələrində - tibb və həkim məntəqəsində, ailə sağlamlıq mərkəzlərində, həmçinin evdə xidmət göstərirlər.

Bu gün ABŞ, Böyük Britaniya, Almaniya, Skandinaviya ölkələri, İtaliya, Fransa, Türkiyə - dünyanın inkişaf etmiş əksər ölkələrində birinci pillə səhiyyə xidmətinin göstərilməsində ailə həkimliyi modelindən geniş istifadə edildiyini vurğulayan İ.İsayev bildirdi ki, ailə həkimliyinə keçiddə məqsəd təməl olaraq fərdlərə və onların ailələrinə birinci pillə səhiyyə xidməti göstərməkdir: “Bu xidmətin tərkibində sadəcə müalicəedici xidmətlər deyil, eyni zamanda fərdə yönəlik qoruyucu xidmətlər də (səhiyyə maarifi, peyvəndləmə və müayinə) yer alıb. Eyni zamanda sağlamlıqla əlaqəli bütün məsələlərdə ilkin dəyərləndirməni aparmaq, ailə üzvləri arasında sağlamlığa təhlükə hallarını erkən aşkarlamaq və müalicəni təşkil etmək də qoruyucu xidmətlərin tərkibinə daxildir. Bundan əlavə, xəstəlik və sağlamlıq hallarına sadəcə bədən deyil, sosial və psixoloji elementləri də göz önünə alaraq yaxınlaşmaq, təxirəsalınmaz ilkin tibbi yardımı vaxtında və tam həcmdə xəstəyə çatdırmaq, xroniki xəstəliklərdə müntəzəm baxış və müalicəni həyata keçirmək, belə xəstəlikləri olan şəxslərlə uzunmüddətli təmaslar quraraq onları nəzarətdə saxlamaq başlıca məqsədlərdəndir. Ailə həkimliyinə keçiddə məqsəd həm də ilkin pillədə fərdlərin ehtiyacları olan qoruyucu xidmətlər (immunizasiya, əks-epidemik tədbirlər və s.) barədə əhaliyə məlumat vermək, səhiyyə maarifi işini aparmaq, fərdlərin yaşayış keyfiyyətlərini və sağlamlıq vəziyyətlərini yaxşılaşdırmağa çalışaraq əhalinin sağlam inkişafına kömək etməkdir.



Ailə həkimliyinin üstünlüklərindən də söhbət açan mütəxəssis bu modeldə səhiyyə xidmətinin yaşından, cinsindən, sağlamlıq və sosial durumundan asılı olmayaraq ailə üzvlərinin hamısına təqdim olunduğunu deyib. Onun sözlərinə görə, ailə üzvləri içərisində yaşanan ailə ortamında kompleks dəyərləndirilmə aparılır, bununla da sağlamlıq sadəcə hər hansı bir xəstəlik və ya əlilliyin yoxluğu anlamına gəlmir, həmçinin sosial və psixoloji olaraq da tam bir optimal firavanlıq halı kimi qiymətləndirilir. Bu zaman hər bir fərdə və onların ailələrinə sağlamlıq ilə əlaqəli məsələlərdə söhbət aparmaq və təlim vermək fürsəti əldə edilir: “Birinci pillədə həll olunmayan sağlamlıq problemlərinə görə xəstə ikinci pilləyə (xəstəxanaya) göndərilir və ikinci pillədə daha yaxşı nəzarət etmək imkanı yaranır. Beləliklə, ailə həkimi üzvlərə və onların ailələrinə müntəzəm görüşəcəkləri, tanıdığı, bildiyi bir həkim vasitəsilə səhiyyə xidmətlərinin təqdim olunmasını təmin edir. Bu isə xüsusilə sağlamlığa zərərli təsiri olan bəzi davranışların dəyişdirilməsi yolunda aparılacaq təlimə müsbət təsir göstərir, şəxsin öz həkiminə daha artıq güvən duymasını, həkimini daha yaxşı tanınmasını təmin edir, nəticədə xəstə-həkim münasibəti daha uğurlu olur”.

Professor onu da diqqətə çatdırıb ki, ailə həkimliyində xəstəyə yanaşma modern tip yanaşmadır. Yəni xəstənin təkcə sağlamlıq durumu deyil, bütün problemləri diqqət mərkəzində saxlanılır. Ailə həkimi xəstəni həyat və yaşayış anamnezi, sosial və peşə problemləri, ailəsi və fiziki əhatəsi ilə birlikdə dəyərləndirir, nəticədə pasiyentin həm mövcud xəstəliyi, həm də psixoloji vəziyyəti yaxşılaşmış olur.

Ailə həkimliyi modelinin ölkəmizdəki vəziyyətinə də toxunan müsahibimiz Azərbaycanda səhiyyə sahəsinin daim milli sosialyönümlü dövlət siyasətinin prioritetləri arasında mühüm yer tutduğunu söyləyib. Əlavə edib ki, bu gün də ölkə rəhbərliyinin müəyyən etdiyi uzunmüddətli inkişaf strategiyasının istiqamətlərindən biri səhiyyənin inkişaf etdirilməsi, əhalinin beynəlxalq standartlara cavab verən ilkin tibbi xidmətlə təmin edilməsi və bunlarla bağlı genişmiqyaslı islahatların həyata keçirilməsidir. Bu baxımdan respublikamızda da bütün dünya səhiyyə sistemində özünü doğrultmuş ailə həkimliyi institutunun yaradılmasına başlanılıb: “Səhiyyə Nazirliyinin “Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müəssisələrində istifadə olunan ixtisasların və vəzifələrin nomenklaturası haqqında” müvafiq əmri ilə “ailə həkimi” vəzifəsi nomenklaturaya salınıb, “Azərbaycanda əhalinin tibbi kadrlar və xəstəxana çarpayıları ilə təminatının normativlərinin təsdiq edilməsi barədə” digər bir əmri ilə ilkin səhiyyə xidməti (I səviyyə) göstərən müəssisələrdə “ailə həkimi” ştat normativi təsdiq olunub. Hələlik bu vəzifəni terapiya və pediatriya ixtisaslı həkimlər tuta bilirlər”.

Universitetimizdə ailə həkimlərinin hazırlanması prosesi zamanı tədrisdə əsaslı islahatların həyata keçirilməsinə böyük diqqət yetirildiyini bildirən professor İ.İsayev Ailə təbabəti kafedrasının öz işini bu sahədə aparıcı olan universitetlərin proqramlarına uyğun qurduğunu, universitetimizdə ailə həkimlərinin hazırlanması məqsədilə rezidenturanın yaradıldığını və bu il onların ilk buraxılışının olduğunu vurğulayıb.

# Ana olmaq istəyən qadın heç vaxt ümidini itirməməlidir

## Mama-ginekoloq Natəvan Axundova: Təsadüfi müayinələr, sistemsiz müalicələr uğursuzluğa gətirib çıxarır



**Qadınlarda ən ali hiss analıq hissidir desək, yanılmarıq. “Cənnət anaların ayağı altındadır” deyimi də təsadüfən yaranmayıb. Ana olmaq ailə həyatı quran hər bir xanımın arzusudur. Amma təəssüf ki bu müqəddəs arzu həmişə reallığa çevrilmir.**

Bu barədə öz fikirlərini “Təbib” qəzeti ilə bölüşən ATU-nun I Mamalıq-ginekologiya kafedrasının dosenti, mama-ginekoloq Natəvan Axundovanın sözlərinə görə, qadının ana ola bilməməsinin əsas səbəblərindən biri də ümidsizliyə qapılmasıdır: “Bəzən pasiyentlər bizə ümidsiz vəziyyətdə müraciət edərək heç zaman ana ola bilməyəcəklərini, yumurtalıqlarının vəziyyətinin çox aşağı olduğunu deyirlər. Ancaq mən həmişə deyirəm ki, insan ümidsizliyə qapılmamalıdır. O həmişə işığa doğru getməli, ana olmaq arzusundan asanlıqla əl çəkməməlidir. Ən azından, doğru mütəxəssis seçimi çox vacibdır. Çünki təsadüfi müayinələr, sistemsiz, alqoritmsiz müalicələr hər zaman uğursuzluğa gətirib çıxarır. İlk növbədə səbəbi düzgün tapmaq lazımdır. Yəni məqsədimiz yalnız yumurtalığın fəaliyyətini artırmaq, iltihabi prosesi müalicə etmək deyil. Səbəbi tapandan sonra uğurlu nəticə əldə etmək mümkündür”.

N.Axundova bildirib ki, bu yaxınlarda pasiyent X.Rzayeva da bizə müraciət edəndə ümidsiz vəziyyətdə idi, əlində bir neçə analizin cavabı, boruların rentgen şəkli vardı: “Mən elə boruların yoxlanma şəklinə görə nələri diqqətdə saxlamaq və hansı istiqamətdə hərəkət etmək lazım olduğunu müəyyən etdim. İlk addımımız doğru oldu və müalicəyə başladıq. Müalicə müddətində əlavə müayinələr aparıldı, hormonal fon yoxlanıldı. Həm boru-peritoneal, həm də endokrinoloji faktor səbəbindən yaranan problemi aradan götürdük. Eyni zamanda həyat yoldaşında şəkərin səviyyəsi yuxarı olduğuna görə, o da endokrinoloq tərəfindən müalicə olundu. Çəkinin azaldılması və spesifik müalicənin aparılması uğurla nəticələndi, pasiyentimiz hamilə qaldı”.

Ümumiyyətlə, yaşı 35-dən yuxarı olan, xüsusilə də induksiya ilə hamilə qalan xanımlarda hamiləliyin ağır keçdiyini söyləyən mama-ginekoloq qeyd edib ki, hamiləlik zamanı ən ağır patologiyadan biri arterial təzyiqin yüksəlməsi, yəni zülal ifrazı ilə müşahidə olunan patologiyanın yaranmasıdır: “Pasiyentimizdə bu riski hamiləliyin ikinci trimestrinin sonundan hiss etməyə başladıq. Baxmayaraq ki, uşaqlıq boynu serklyaj olunmuşdu, tikiş qoyulmuşdu. Biz bu hamiləliyi çox çətinliklə 34 həftəyə çatdırdıq. Dölün ağciyərinə görə profilaktik tədbirlərimizi apararaq hamiləliyi vaxtında yekunlaşdırdıq. Uşaqlardan biri neonatal şöbədə qısa müddətli müalicə alsa da, o birisinə heç bir reanimasiya tədbiri görülmədi, hər iki körpə evə yazıldı. Hal-hazırda ana və övladları sağlamdır”.

Ailənin sevincində xüsusi payı olan həkim, analıq hissi yaşamaq istəyən bütün qadınlara vaxtında mütəxəssisə müraciət etməyi və heç vaxt ümidlərini itirməməyi məsləhət görür.

**M.ƏLƏKBƏRLİ**

# Vətən müharibəsində qazilərin tibbi reabilitasiyası



**Keçən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Ermənistan ordusu rus silahlı qüvvələrinin hərbi yardımı ilə Azərbaycanın tarixi torpaqlarına hərbi təcavüz edərək, 20 faizədək ərazimizi işğal etdi və 1 milyondan artıq vətəndaşımız öz doğma yurd-yuvalarından məcburi köçkün düşdü. Azərbaycan torpaqlarının qeyd-şərtsiz boşaldılması haqqında BMT TŞ-nin 4 qətnaməsinə, ATƏT-in sülh yaratmaq yönündə bütün cəhdlərinə məhəl qoymayan erməni vandalları işğal etdikləri ərazilərdə bütün evləri, ictimai binaları, tarixi abidələri, hətta məscidləri yerlə-yeksan etdilər.**

Dünyanın aparıcı dövlətlərinin ikili yanaşması müharibənin sülh yolu ilə həll olunmasına imkan vermədi. Ancaq otuz ilə yaxın bir müddətdə respublikamızın iqtisadi gücünün günü-gündən artması ordumuzun da müasir tələblərə uyğun silahlarla təchiz olunmasını sürətləndirdi, hərbi qüdrətimiz daha da yüksəldi.

Dəfələrlə düşmən təxribatlarının qarşısını alan Azərbaycan Silahlı Qüvvələrinin səbr kasası artıq dolurdu. Nəhayət, 2020-ci il sentyabr ayının 27-də törədilən təxribata cavab olaraq ordumuz Ali Baş Komandanın əmri ilə vətən torpaqlarının azad olunması əməliyyatına başladı. Bütün xalq bir yumruq kimi birləşdi. Qüdrətli ordumuz erməni qüvvələrinə sarsıdıcı zərbələr endirərək işğal altındakı torpaqlarımızı 44 gün ərzində azad etdi.

Çox təəssüf ki, müharibə itkisiz olmadı və bu qələbə 3 minədək şəhid, 10 minədək qazinin qanı bahasına başa gəldi. Qafqazın musiqi beşiyi sayılan Şuşa azad olundu, xalqımız azad nəfəs almağa başladı. Bu qələbənin qazanılmasında da tibb işçilərinin xidmətləri böyük oldu. İstər ön cəbhədə, istərsə də arxa cəbhədə yaralılara yüksək səviyyədə tibbi xidmət göstərilməsi sayəsində yüzlərlə qazi həyata qayıtdı. Müharibə zamanı Azərbaycan Tibb Universitetinin yüksək ixtisaslı cərrahları, anestezioloq-reanimatoloqları, neyrocərrahları xüsusi fədakarlıqla çalışdılar. Yaralıların 70%-də aşağı ətraf yaralanmaları (mina və qəlpə yaralanmaları qarışıq), 15%-də odlu silah yaralanmaları (aşağı və yuxarı ətraflar, çiyin qurşağı, bud-çanaq, bel-oma), 5%-də döş qəfəsi, qarın boşluğu orqanları, 10 %-də mina zədələnmələri (qarışıq nahiyələr) olmuşdu. Müharibədən sonra respublikamızın ən aparıcı klinikalarında, o cümlədən universitetimizin Tədris Terapevtik Klinikasında qazilərin müalicə və reabilitasiyaları davam etdirildi. Universitet rəhbərliyi qazilərə xüsusi qayğı göstərərək, daim onlarla maraqlanırdı. Nevrologiya kafedrasının assistentləri Dilarə Xəlilova və Nuran Əmənullayev qazilərimizin müalicəsində xüsusi fədakarlıqla çalışdılar. Periferik sinirlərin zədələnmələri olan döyüşçülərə elektroneyromioqrafiya müayinəsini isə professor Sədaqət Hüseynova aparırdı. Zərurət yaranan zaman cərrah, psixiatr, neyrocərrah, travmatoloq və psixoloqla da məsləhətləşmələr təşkil edilirdi.

Fizioterapiya və tibbi reabilitasiya kabinetində tibb bacıları İradə İslamova və Gülxanım Əliyeva qazilərə xüsusi diqqət, ana-bacı qayğısı ilə yanaşırdılar. Elektrostimulyasiya, darsonvalizasiya, maqnitoterapiya, ultrasəs, parafin, masaj, naftalan, bədən tərbiyəsi müalicələri tətbiq edildi və reabilitasiyanın elə ilk günlərində müalicəvi effekt alındı. Demək olar ki, 5 və 6-cı prosedurdan sonra qazilərdə olan yuxu pozğunluğu, baş və əzələ ağrıları tam keçdi. Aparılan söhbətlər qorxu və həyəcan hissini tez bir zamanda yox etdi. Zədələnmiş sinirlər bərpa olunduqca, ətraflarda hərəkətin həcmi artdı, əzələlərdə qan dövranı yaxşılaşdığından qidalanma bərpa olundu, əsa və qoltuq ağaclarından imtina edən xəstələrin həyat keyfiyyəti yüksəldi. Qeyd edim ki, Şuşanın azad olunmasında xüsusi fədakarlıq, igidlik göstərmiş xüsusi təyinatlı əsgər və zabitlərimizdəki dözüm və dəyanətə heyran olmamaq mümkün deyildi. Onlar öz davranışları və hərəkətlərilə digər qazilərimizə sanki xəstəliklə necə mübarizə aparmaq nümunəsi göstərirdilər.

Kollektivimiz üçün çox xoş və fərəhli haldır ki, qazilərin bir qisminin müalicə-reabilitasiyasında az da olsa bizim də xidmətlərimiz var. Bu gün də ehtiyac olduqda, qazilərimiz lazımi tibbi xidmətlərlə ən yüksək səviyyədə təmin edilir.

**Paşa MEHDİYEV,**
*Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, dosent*

**Bütün dünyada geniş yayılmış uroloji xəstəliklərdən biri sidik daşı (urolitiaz) xəstəliyidir. Bu barədə "Təbib" qəzetinə danışan ATU-nun Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev bildirib ki, Qafqaz, o cümlədən Azərbaycan dünyada sidik daşı xəstəliyinin endemik ocaqlarından biri hesab olunur:**

# Böyrək sancısı insan orqanizmində ən kəskin ağrıdır

## Professor Rauf Nağıyev: Gec mərhələlərdə xəstəyə kömək etmək çətinləşir, xroniki böyrək çatışmazlığı riski artır



"Təsadüfi deyil ki, Azərbaycanda akademik Mirqasımov tərəfindən XX əsrin əvvəllərində urologiya üzrə yazılmış ilk elmi əsər də böyrək daşına həsr edilmişdi. Bu problem indi də aktual olaraq qalır. Uroloji stasionarlarda müalicə alanların təxminən 40-50 faizi sidik daşı xəstəliyi ilə bağlı müraciət edənlərdir. Bunların içərisində həm böyrəyində, həm də sidik axarında və sidik kisəsində daş olan xəstələr daha çoxdur".

ATU-nun Tədris Cərrahiyyə Klinikasında bu qrup xəstələrin qəbulu üçün hər cür şərait yaradıldığını deyən R.Nağıyev qeyd edib ki, burada bütün növ rentgenoloji avadanlıq, kompüter, maqnit-rezonans tomoqrafiyası mövcuddur. Eyni zamanda yüksək səviyyəli mütəxəssislər çalışır. Ona görə də xəstələrin müayinə və müalicəsini ən müasir üsullarla, Avropa standartlarına uyğun aparmaq mümkündür: "Kafedramız bu sahədə ən aparıcı qüvvələrdəndir. Kifayət qədər təcrübəmiz var. Həmin xəstəliklərə dair bir neçə dərslik yazılıb. Endoskopik müalicə üsulları ilə bağlı mütəmadi olaraq tələbələrimizə və rezidentlərimizə seminarlar, nəzəri dərslər keçirik, gələcəkdə praktiki kursların təşkilini də nəzərdə tutmuşuq".



R.Nağıyev onu da diqqətə çatdırıb ki, bizim pasiyentlər ilk növbədə konservativ müalicəyə üstünlük verirlər, əməliyyat olunmaq istəyənlər azdır: "Amma daş xəstəliklərində konservativ müalicənin faydası çox olmur. Əgər yuxarı və aşağı sidik yollarında tıxanıqlıq törətməyən, böyrəkdə hidronefroz dediyimiz genişlənmə yaratmayan, 10-15 mm-ə qədər ölçüdə olan, həmçinin sıxlığı da çox olmayan daşlar varsa, müxtəlif bitki və kimyəvi tərkibli dərmanlarla bir neçə ay ərzində konservativ müalicə uğurla nəticələnə bilər. Sidik yollarında daşın olduğu digər bütün hallarda isə cərrahi müdaxilə mütləqdir. Çünki daşın sidik yollarında olması xroniki infeksiyaya şərait yaradır. Xüsusilə tıxanıqlıq yaradan daşlar böyrəyin funksiyasına qısa müddətdə ciddi zərər verir, hətta böyrəyin itirilməsinə qədər gətirib çıxarır. Bu gün qabaqcıl Avropa ölkələrində, Amerikada daş xəstəliyinin 98 faizinin müalicəsi endoskopik üsulla aparılır, yalnız 2 faiz hallarda açıq cərrahi müdaxilələr həyata keçirilir. Ölkəmizdə əvvəllər daha çox açıq cərrahiyyəyə üstünlük verilirdisə, artıq son 10-15 ildə səhiyyənin aktiv inkişafı, tibbi texnikanın güclənməsi, xaricdə təhsil almış mütəxəssislərimizin Azərbaycana dönüşü sayəsində bu faiz nisbəti kəskin dəyişməyə başladı. Dəqiq statistik məlumat olmasa da, əminliklə deyə bilərəm ki, indi Azərbaycanda bu xəstəliklərin 80 faizə yaxını qapalı üsullarla müalicə olunur".

Müsahibimizin sözlərinə görə, böyrək daşı xəstəliyində düzgün aparılmış diaqnostika və müalicə ilə yanaşı, ən vacib məqamlardan biri də bu xəstəliyin profilaktikasıdır. Birinci profilaktik tədbir maye qəbulunun artırılmasıdır. Su qəbulunun həcmi sutka ərzində 1.5-2 litrdən az olmamalıdır. Qeyri-aktiv həyat tərzi, zərərli vərdişlər, alkoqoldan istifadə, piylənmə, artıq çəki metabolizm sindromunun əsas göstəriciləri və daş xəstəliyinin əmələ gəlməsində risk faktorlarıdır. Belə halların qarşısını vaxtında almaq da profilaktik tədbirlər sırasında xüsusi yer tutur. Bundan əlavə, daşın tərkibinə diqqət yetirilməlidir: "Unutmamalıyıq ki, maddələr mübadiləsinin pozulması səbəbindən böyrəkdə və sidik yollarında daşın əmələ gəlməsi ümumi bir problemdir. Təbii ki, genetik, geoqrafik və qida amilinin rolu da danılmazdır. Şimal bölgələrində sidik daşı xəstəliyinə rastgəlmə tezliyi daha çoxdur. Bu da böyük ehtimalla oradakı suyun tərkibi ilə bağlıdır. Biz öz klinik praktikamızda xaric olunmuş daşların spektral analizini tövsiyə edirik ki, kimyəvi tərkibi müəyyənləşdirilsin. Xəstəyə də kimyəvi tərkibə uyğun pəhriz-lər məsləhət görürük".

Endemik ocaqda yerləşdiyimiz üçün ultrasəs müayinəsi zamanı körpə uşaqların böyrəklərində də xırda duzların aşkar olunduğunu söyləyən mütəxəssisin fikrincə, böyrək sancısı insan orqanizmində ən kəskin ağrıdır və xüsusi bir profilaktikası yoxdur. Əsas məsləhət insanların ildə ən azı iki dəfə ultrasəs müayinəsindən keçməsidir. Müayinə zamanı xırda daş, iri duz kristalı aşkar olunduqda, müalicə vaxtında aparılarsa, o daş gəlib sidik axarına düşməz və kəskin sancı da verməz.

Professor R.Nağıyev ağrısız simptomların isə ən mürəkkəb qrup daşlara aid olduğunu vurğulayıb. Həmin qrupa aid olan mərcanvari daşların böyüyərək böyrəyin bütün strukturunu əhatə etdiyini, kəskin deyil, daha çox küt ağrılar verdiyini bildirib: "Bəzən xəstələr bizə müraciət edəndə 7-8 sm-lik daşlar aşkarlanır. O daşların cərrahi yolla çıxarılması riskli, qanaxma ehtimalı yüksəkdir. Amerikada, Avropada belə hallara nadir hallarda rast gəlinir. Bizim xəstələr həkimə son mərhələdə müraciət etdiyindən, mərcanvari daşlarla tez-tez rastlaşırıq. Bu proses ikitərəfli olarsa, artıq o xəstəyə kömək etmək də çətinləşir, xroniki böyrək çatışmazlığı riski artır. Əsas tövsiyəmiz odur ki, hər kəs, xüsusilə də nəslində daş xəstəliyi olan insanlar mütəmadi qaydada müayinədən keçsin".

Onkoloji xəstəliklərin ilbəil artımı fonunda böyrək şişi və sidik kisəsi şişi olan xəstələrlə də tez-tez rastlaşdığını bildirən həkim-uroloq, həmin şəxslərin təxminən 50 faizində heç bir simptomun baş vermədiyinə, yeni xəstəliyin digər müayinələr zamanı təsadüfən aşkarlanmasına, lakin sidik kisəsinin törəmələrinin kiçik ölçülü olsa belə, ciddi şikayətlər yaratdığına diqqət çəkib. Belə ki, sidiyə gedən zaman ağrı, sidik ifrazatı zamanı qan müşahidə edilir. Müalicənin effektivliyi xəstənin həkimə vaxtında müraciət etməsindən asılıdır. Xəstə ilkin mərhələlərdə müraciət etdikdə, həm cərrahi əməliyyatın həcmi kiçik, həm də şişin yayılma ehtimalı az olur. Xəstəliyin son mərhələlərində isə böyrək şişi və yaxud sidik kisəsinin şişi ətraf orqanlara – düz bağırsaq, prostat vəzi, qadınlarda uşaqlığa sirayət edə, ağciyərlərdə, sümüklərdə metastaz yarada bilər.

Ümumiyyətlə, təkcə böyrək və sidik kisəsi şişlərinin deyil, bütün uroloji xəstəliklərin müayinə və müalicəsində erkən müraciət çox önəmlidir.

**A.KAMRANOĞLU**

**Sağlamlığımızla bağlı problem yarananda, “qanını yoxlatdır”, “qan analizi ver”, “bəlkə qanın azdır?” kimi ifadələri tez-tez eşidirik. Qanın insan orqanizmi üçün müstəsna əhəmiyyətini tibbi savadı olmayanlar da yaxşı bilir. Bəs tibbi nöqteyi-nəzərdən qanazlığı nədir? Bu haqda mütəxəssislər nə deyir?**

# Qanazlığının ən böyük səbəbi dəmir çatışmazlığıdır

## Əlamətləri isə çoxdur: halsızlıq və təngnəfəslikdən tutmuş, yüksək nəbz və saç tökülməsinədək

“Hemoqlobin və hemotokrit səviyyəsinin normadan aşağı olması qanazlığı kimi bildiyimiz anemiya halıdır. Hemoqlobin qanda oksigen daşımaq funksiyasını yerinə yetirən, qırmızı qan hüceyrəsi adlanan eritrositin əsas hissəsidir. Yetərincə qırmızı qan hüceyrəsinin sintezlənməməsi, qanama nəticəsində Hg itkisi, hemolitik anemiyalarda eritrosit ömrünün qısa olması, bəzi mikroelement və vitamin çatışmazlığı nəticəsində yaranan anemiyalar qanazlığının əsas səbəblərindəndir” – ATU-nun Tədris Terapevtik Klinikasının Hemotologiya şöbəsinin müdiri, I Daxili xəstəliklər kafedrasının əməkdaşı Şəhla Şabanova bildirir.



Onun sözlərinə görə, dünyada, eləcə də Azərbaycanda qanazlığının ən böyük səbəbi dəmir azlığıdır. Bu bütün qanazlığının təxminən 75%-ni təşkil edir. Adət görən gənc qadınlarda dəmir azlığının əsas səbəbi hər ay tsikl müddətində qanla birgə itirilən dəmirdir. Hamiləlik, südəmər, pubertat dövrlərdə dəmir istifadəsinin yüksəlməsi də qanazlığına səbəb ola bilir. Kişi cinsində izlənilən dəmir çatışmazlığında ilk olaraq ağla mədə-bağırsaq qanamaları gəlməlidir. Belə ki, bəzən bəsit dəmir çatışmazlığı mədə-bağırsaq sisteminin bədxassəli xəstəliyinin ilkin əlaməti ola bilir: “Bundan başqa, vitamin B12, fol turşusu çatışmazlığında megaloblastik anemiyaya rast gəlinir. Qırmızı ətin az istifadəsi vitamin B12, dəmir azlığına, tərəvəzin məhdud istifadəsi fol azlığına səbəb ola bilir. Həmçinin anadangəlmə qanazlıqları olan talassemiya, oraqhüceyrəli anemiyalar ölkəmizdə çox yayılıb. İrsi qanazlığı olan talassemiya üçün ölkəmiz endemik zona sayılır. Talassemiyanın ağırlıq dərəcəsinə görə əsasən 3 növü var. Ağır forma - Mayor Talassemiya, ara - Talassemiya İntermedia, yüngül forma - Talassemiya Minor (talassemiya əlamətini daşımaq) olaraq tanınır. Son illər nikah öncəsi talassemiya skrininqi aparılır ki, bu da talassemiyalı xəstələrin çoxalmasının qarşısını alır”.




Halsızlıq, tez yorulma, təngnəfəslik, baş dönməsi, ürək ritminin pozulması, yüksək nəbz, yuxuya meyillilik, saç tökülmə və bir çox ümumi şikayətlərin qanazlığının əsas əlamətləri olduğunu söyləyən müsahibimiz qeyd edir ki, ildə 1-2 dəfə qanın kontrol məqsədli ümumi analizinə baxılmalı, mümkün qan azlığı vaxtında aşkarlanmalı, müalicəsi aparılmalıdır. Əsasən yeniyetmə və gənc qadınlarda aylıq dönəmə bağlı qan azlığı dərinləşə bilər. Qan azlığının verə biləcək şikayət yelpazəsi çox genişdir. Belə ki, bəzən təngnəfəslik, bəzən ürəkdöyünmənin yüksəlməsi, bəzən isə saçtökülmə və ya dırnaq qırılması kimi şikayətlərlə özünü göstərir.

Qan azlığının fəsadlarından danışan həkim xatırladıb ki, qırmızı qan hüceyrələri orqanizmdə oksigen daşımaq funksiyasına sahibdir, anemiya zamanı toxumalara yetərli oksigen təminatı pozulur və bu səbəbdən də daxili orqanlarda, əzələlərdə funksional pozğunluq yarana bilir. Dərin qan azlıqları zamanı (Hg-7 g/dl aşağı) beyin, ürək, böyrək toxumasının zədələnməsi orqan disfunksiyasına gətirib çıxarır.

Qanazlığının onlarla müxtəlif səbəbi olduğunu bildirən Ş.Şabanovanın fikrincə, anemiyanın ilkin müalicəsi altda yatan səbəbin araşdırılmasıdır: “Çünki anemiya bir xəstəlik deyil, şikayət və əlamətlər toplusudur. Sümük iliyi və ya xronik xəstəliklər, onkoloji xəstəliklər, irsi və ya qazanılmış hemoliz (qan parçalanması) də qanazlığının səbəblərindən hesab olunur. Ancaq gündəlik həyatımızda qanazlığının ən çox rast gəlinən növü dəmir defisitli anemiyadır ki, profilaktik olaraq qırmızı ət, meyvə-tərəvəz qidalanması məsləhət görülür. Bu qədər müxtəliflik göstərən anemiyaların müalicəsi həkim-hematoloq nəzarəti olmadan aparılmamalıdır”.

# Rezident qızılca xəstəliyi haqda məruzə oxuyub



**ATU-nun Tədris Terapevtik Klinikası Rezidentura və magistratura şöbəsi ilə birgə növbəti seminar keçirib. İştirakçıları salamlayan klinikanın baş həkimi Fəridə Hacıyeva seminarın qızılca xəstəliyinə həsr olunduğunu bildirib və məruzəçini - pediatr ixtisası üzrə təhsil alan III kurs rezident Aytac Quluzadəni təqdim edib.**

Sonra rezidentin kuratoru, klinikanın Uşaq xəstəliyi şöbəsinin müdiri, assistent Qoşqar İsmayılov mövzu ilə bağlı fikirlərini səsləndirib və sözü A.Quluzadəyə verib.

Məruzəçi çıxışında qızılcanın səbəbləri, simptomları, qorunma yolları və evdə müalicə üsullarını ətraflı təhlil edərək söyləyib ki, o, virus mənşəli, kəskin antroponoz infeksion xəstəlikdir: “Paramiksovirusların morbiliviruslar cinsinə məxsus RNT tərkibli virus tərəfindən törədilir. Bu virus hava və damcı yolu ilə keçərək bir yaşdan beş yaşadək uşaqlarda inkişaf edir. Qızılcanı adətən yaşlı insanlar daha ağır keçirir. Həmçinin anadan keçən passiv immunitetlə əlaqədar üç aya qədər uşaqlarda qızılca baş vermir.

Bu virus dörd mərhələ - inkubasiya, prodromal, səpkilər və rekonvalessensiya dövrlərinə ayırd edilir. Rubeola virusu tərəfindən yaradılan qızılca, əsasən havadamcı yolu ilə yayılır və dəri ləkələri, hərarət, limfa düyünlərinin şişməsi kimi əlamətlərlə xarakterizə olunur. Koplik ləkələri qızılca üçün patoqnomikdir, filatov, ağızda, yanağın selikli qişasında, alt kiçik azı dişləri n m bərabərliyində adətən biri-biriləri ilə birləşməyən ağımtıl rəngdə ləkələr meydana çıxır.

Ağırlaşmalara gəldikdə isə, nekrotik və ya irinli-nekrotik panbronxit, peribronxial ocaqlı pnevmoniya, kəskin qızılca ensefaliti, kataral-nekrotik, fibrinoz xoralı kolit, sepsis, nekrotik tonzillit, otit baş verə bilər”.

Sonra Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov mövzuya dair çıxış edərək vurğulayıb ki, qızılca xüsusilə uşaqlar arasında yayılan, lakin böyüklərdə də rast gəlinə bilən yoluxucu xəstəlikdir. Xəstəlik, adətən xəfif keçsə də, hamilə qadınlarda doğulacaq körpəyə ciddi təsir edə bilər. Çıxışlarda qeyd olunub ki, qızılcadan qorunmaq üçün ən mühüm addım peyvənd olunmaqdır.

Sonda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb. Tədbirdə klinikanın rezidentləri və tələbələr iştirak ediblər.

# Əsaslı kitabxana qədim tibb kitablarını elektron kataloqa daxil edib



**Odur yol göstərən uca zirvəyə,**
**Gözündə hər kitab dönüb məbədə.**
**Müqəddəs əməli bənzər Kəbəyə,**
**Çox zaman qalsa da adı kölgədə.**

İlk kitabxanalar eramızdan əvvəl yaradılıb. Ən qədim kitabxanalardan biri Assur hökmdarı tərəfindən yaradılmış kitabxana idi. Misirdə eramızdan öncə mövcud olmuş İskəndəriyyə kitabxanası isə dövrünün ən böyük kitabxanası idi.

Azərbaycanda da kitabxanaların çox qədim tarixi var. Belə ki, bəşər tarixinin ən qədim yazı abidələrindən biri, qədim dünya ədəbiyyatının ən zəngin, ən qiymətli incisi olan “Avesta”nın qədim Azərbaycan dövləti Midiyada yaranması Azərbaycan mədəniyyətinin, tarixinin çox zəngin bir keçmişə malik olmasından xəbər verir. Artıq o dövrdə Azərbaycanda kitabxanalar var idi. XIII əsrdə böyük Azərbaycan alimi Nəsirəddin Tusinin rəhbərliyi altında Marağa rəsədxanası təsis edildikdən sonra (1259-1261) onun nəzdində çox böyük və zəngin elmi fondu olan kitabxana yaradılmışdı. Kitabxananın yaradılması işinə rəhbərliyi Nəsirəddin Tusi şəxsən həyata keçirmiş və kitabxanaya diqqət və qayğısını əsirgəməmişdi.

Kitabxana işinin inkişafı haqqında ilk dövlət fərmanı Şah İsmayıl Xətai tərəfindən 1522-ci ildə imzalanıb. Onun tərəfindən çox zəngin fondu olan Təbriz Saray Kitabxanası yaradılmışdı.

XXI əsr informasiya texnologiyalarının inkişafı və texniki tərəqqi əsridir. Müxtəlif növlü və məzmunlu sənədləri özündə cəmləşdirərək, onları mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi indi artıq əlçatandır. Elektron kitabxanalar hər zaman xidmət göstərən informasiya sistemləridir və dünyanın istənilən yerində olan kitabxana fondunun oxucuların üzünə açıq olması deməkdir. Bu istiqamətdə doğma universitetimizdə də böyük işlər görülür. Rektorumuz, professor Gəray Gəraybəyli başda olmaqla, universitet rəhbərliyinin diqqət və qayğısı sayəsində kitabxanamız ən müasir informasiya texnologiyaları ilə təchiz edilib və bu sahədə ən son tələblərə cavab verən İRBİS-64 avtomatlaşdırılmış kitabxana-informasiya sistemi (AKİS) ilə təmin olunub. Bu sistem imkan verir ki, biz öz zəngin kitab fondumuzu, həmçinin alimlərimizin elmi fəaliyyətlərinin nəticəsi olan kitab və jurnalları, məqalələri dünya istifadəçilərinə təqdim edək və eyni zamanda dünya kitabxanalarının zəngin kitab fondundan müəllim və tələbələrimizin istifadə etməsinə şərait yaradaq.

Universitetimizin kitabxanası olduqca zəngin fonda malikdir. Burada hətta 19-cu əsrin əvvəllərinə aid olan və təbabətin müxtəlif sahələrini əhatə edən unikal kitablar qorunub saxlanmaqdadır. Hazırda bu zəngin fondun elektron kataloqunun yaradılması işi çox ciddi şəkildə davam etdirilir. Artıq tibbi ədəbiyyatın çox böyük bir hissəsi: 27.431 adda Azərbaycan, türk, rus, ingilis dillərində olan kitablar elektron kataloqa daxil edilib. Həmçinin 34.590 jurnal və 21.134 qəzet məqaləsi də burada öz əksini tapıb.

Çox dəyərli müəllim və tələbələrimizə üzümüzü tutaraq demək istəyirik ki, kitabxanamızda qorunub saxlanılan, artıq kitabxananın “Qızıl fondu” sayılan və elektron kataloqda öz əksini tapan qədim tibb kitablarından bir neçəsini sizə təqdim edirik. Bu kitablar minlərlədir və təbabətin demək olar ki, bütün sahələrini əhatə edir. Buyurun, tanış olun və kitabxanamıza gələrək onlardan faydalanın.

**Ziyafət EMİNOVA,**
*Əsaslı kitabxananın direktoru,*
**Gülarə QARAYEVA,**
*Elmi kitabişləmə və kataloqlaşdırma şöbəsinin müdiri*

# ATU-nun kafedra müdiri vəfat edib

**Azərbaycan Tibb Universitetinə ağır itki üz verib. Həyatının 30 ildən çoxunu elm-təhsilə, eləcə də onun idarəçiliyinə həsr edən ATU-nun Tibbi və bioloji fizika kafedrasının müdiri, dosent Şahin Bayramov dünyasını dəyişib.**



Şahin Qənbər oğlu Bayramov 1963-cü il iyunun 26-da Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Nərimanlı kəndində ziyalı ailəsində anadan olub. O, 1981-ci ildə kənd orta məktəbini bitirib və Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsinə daxil olub. 1986-cı ildə universiteti fərqlənmə diplomu ilə bitirən Ş.Bayramov təyinatla Azərbaycan ET Əkinçilik İnstitutuna, 1987-ci ildə isə SSRİ EA Biofizika İnstitutuna staj keçməyə göndərilib. 1988-ci ildə bu institutda aspiranturaya daxil olaraq, 1991-ci ildə "biofizika" ixtisası üzrə bitirib. 1992-ci ildə "fizika-riyaziyyat elmləri namizədi" alimlik dərəcəsi alan Ş.Bayramov 1992-ci ildən taleyini Azərbaycan Tibb Universitetinə bağlayıb.

Şahin müəllim Tibbi və bioloji fizika kafedrasında bu illər ərzində assistent, baş müəllim və dosent vəzifələrinədək yüksəlib. O, kafedrada müəllimlik fəaliyyəti ilə yanaşı, 2003-2009-cu illərdə Tibbi profilaktika, 2009-2011-ci illərdə isə I Müalicə-profilaktika fakültəsində dekan müavini vəzifəsində çalışıb. Ş.Bayramov 2011-2019-cu illərdə universitetdə ilk dəfə elektron imtahan sisteminin yaradılmasında bilavasitə iştirak edib, ATU-nun İmtahan Mərkəzinin ilk direktoru olub. 2019-cu ildə Tibbi və bioloji fizika kafedrasının müdiri vəzifəsinə seçilib və ömrünün son günlərinə qədər həmin vəzifəni icra edib. Azərbaycan Tibb Universitetinin tələbələri üçün bir dərslik, iki dərs vəsaiti və 56 elmi məqalənin müəllifidir.

Şahin müəllim əmək fəaliyyəti dövründə universitetin ictimai-mədəni həyatında fəal iştirak edən, sağlam düşüncəli mövqeyi ilə daim örnək olan qabaqcıl müəllimlərimizdən idi. O, kafedraya rəhbərlik etdiyi dövrdə öz dürüstlüyü və peşəkarlığı ilə universitetimizin pedaqoji və tələbə kollektivi arasında böyük hörmət və nüfuz qazanmışdı.

Hər zaman səmimiyyəti və əməksevərliyi ilə seçilən istedadlı alim, bacarıqlı pedaqoq və gözəl ailə başçısı Şahin Bayramovun əziz xatirəsi doğmalarının və onu tanıyanların qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

*ATU-nun rektorluğu və Tibbi və bioloji fizika kafedrasının əməkdaşları*

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. "Pedaqoji peşəkarlığın artırılması" mövzusunda təlimlərdə iştirakı barədə sertifikat.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların müdirləri:**
- Uşaq stomatologiyası kafedrası
- Bioloji kimya kafedrası

**Kafedraların professorları:**
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**
- Nevrologiya kafedrası - 1 yer (0,5 vahid)
- Normal fiziologiya kafedrası - 2 yer
- Bioloji kimya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer (0,5 vahid)
- Allerqologiya və immunologiya kafedrası - 2 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer

**Kafedraların assistentləri:**
- I Mamalıq və ginekologiya kafedrası - 2 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,25 vahid)
- Fizioterapiya və tibbi reabilitasiya kafedrası - 2 yer
- Allerqologiya və immunologiya kafedrası - 2 yer (0,5 vahid)
- Allerqologiya və immunologiya kafedrası - 1 yer (0,25 vahid)
- Ağciyər xəstəlikləri kafedrası - 1 yer
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer (0,5 vahid)
- Təcili tibb kafedrası - 4 yer
- Dermatovenerologiya kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq kimyası kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiyası kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- I Daxili xəstəliklər kafedrası - 1 yer
- Epidemiologiya və biostatistika kafedrası - 1 yer
- Epidemiologiya və biostatistika kafedrası - 1 yer (0,5 vahid)
- Nevrologiya kafedrası - 1 yer
- Tibbi mikrobiologiya və immunologiya kafedrası -1 yer (0,5 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**
- Xarici dillər kafedrası - 1 yer
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer
- Epidemiologiya və biostatistika kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların müəllimləri:**
- Xarici dillər kafedrası - 2 yer
- Xarici dillər kafedrası - 1 yer (0,5 vahid)
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer (0,5 vahid)
- İctimai fənlər kafedrası - 1 yer (0,25 vahid)
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer (0,25 vahid)
- Bioloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- Normal fiziologiya kafedrası - 2 yer (0,5 vahid)
- Tibb xidmətinin təşkili və taktikası kafedrası (HTF) - 1 yer
- Biloji kimya kafedrası üzrə Elmi Tədqiqat Laboratoriyası (böyük elmi işçi) - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi, 14**
**Telefon: 597-10-08**

# Tələbələrimiz müxtəlif yarışlarda gücünü sınayıb





**ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi ilə razılaşdırılmış əsasnaməyə uyğun olaraq "Təbib" idman klubunun təşkilatçılığı ilə futzal yarışları keçirilib.**

Yarışların baş tutması üçün fakültə dekanlıqlarından hər komandanın tərkibində 8 tələbə olmaqla 12 komandanın sifarişi təqdim edilib. Futzal üzrə bölmənin məşqçi-müəllimi Şükür Bayramov tərəfindən komandaların kapitanları yarışların keçirilmə qaydaları ilə ətraflı tanış edilib və turnir cədvəli müəyyənləşdirilib. 3 həftə davam edən və dairəvi sistem üzrə keçirilən oyunlarda yarımfinalçılar müəyyənləşib. Dekabrın 9-da final oyunları keçirilib. Hərbi Tibb Məktəbinin I kurs kursantları (623F-2b komandası) bütün rəqiblərinə qalib gəlib. 623F-3a komandası ikinci, 623F-3b komandası isə üçüncü yerə layiq görülüb.

Yarışların bağlanış mərasimində ATU-nun THİK sədri Qoşqar İsmayılov, Hərbi tibb fakültəsinin zabitləri və "Təbib" idman klubunun sədri Qələndər Aslanov Ümummilli Lider Heydər Əliyevin ölkə idmanının inkişafındakı misilsiz xidmətlərindən, dövlətimizin idmana və idmançılara qayğısından danışıb və tələbələri təbrik ediblər. Sonda qaliblər medal, diplom və kubokla təltif olunublar. Kursant Zamil Əliyev oyunlarda "Ən çox qol vuran oyunçu" kimi Fəxri diplomla təltif edilib.

****

ATU-nun Tədris İdman Kompleksində Bakı Şəhər Gənclər və İdman İdarəsinin Nəsimi rayon sektoru və "Təbib" idman klubunun birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş tələbələr arasında stolüstü tennis (qadınlar və kişilər) və voleybol (kişilər) idman növləri üzrə turnir baş tutub. Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Stolüstü tennis yarışları bölmənin məşqçi-müəllimi Yaroslava Ağamalıyevanın rəhbərliyi ilə 11 qadın, 19 kişi olmaqla dairəvi sistemlə aparılıb. Turnirin sonunda qaliblər müəyyənləşib. Qadınlar arasında Paşazadə Hicran birinci, Məmmədova Sitarə ikinci, Balkan Sena üçüncü yerə, kişilər arasında Barış Kaplan birinci, Cəfərli İsa ikinci, Balakişiyev Əli üçüncü yerə layiq görülüblər.

Voleybol yarışları isə bölmənin məşqçi-müəllimi Şükür Bayramovun rəhbərliyi ilə 5 komandanın 30 voleybolçusu arasında keçirilib. Gərgin keçən oyunların sonunda II Müalicə-profilaktika fakültəsinin komandası birinci, Stomatologiya fakültəsinin komandası ikinci, I Müalicə-profilaktika fakültəsinin komandası üçüncü yerə layiq görülüb.

Dekabrın 25-də yarışların bağlanış və qaliblərin təltifolunma mərasimi baş tutub. Çıxışlarda Vətən müharibəsində şücaət göstərmiş idmançı şəhidlərimizdən geniş bəhs olunub. Bakı şəhər Gənclər və İdman İdarəsinin Nəsimi rayon sektorunun müdiri Yusif Babanlı ATU-da tələbələr arasında tez-tez yarışların təşkil olunmasına görə İdarə adından universitet rəhbərliyinə təşəkkürünü bildirib.

Sonda qaliblər diplom, medal və kubokları ilə təltif olunublar.

****

Dekabrın 9-da ATU-nun "Təbib" idman klubunda əcnəbi tələbələrin şahmat turniri keçirilib. Turnirdə universitetin müxtəlif fakültələrindən 24 tələbə iştirak edib. Yarış şahmat-dama bölməsinin məşqçi-müəllimi Kübra Bacarani tərəfindən FİDE qaydalarına uyğun olaraq qarışıq (qızlar, oğlanlar bir yerdə) formada 7 turdan ibarət keçirilib.

7 oyundan sonra Stomatologiya fakültəsinin I kurs tələbəsi Soheyi Mohammadi Azar 7 xalla birinci, I Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Omar Baradeiya 5 xalla ikinci, Stomatologiya fakültəsinin I kurs tələbəsi Mobin Pourmarjan Varjovi isə 4 xalla üçüncü yerin sahibi olub.

Yarışın bağlanış mərasimində "Təbib" idman klubunun sədri Qələndər Aslanov çıxış edərək əcnəbi tələbələrə ATU rəhbərliyi tərəfindən hər zaman diqqət və qayğı göstərildiyini qeyd edib və belə yarışların tədris ili ərzində digər idman bölmələrində də davam etdiriləcəyini vurğulayıb.

Sonra əcnəbi tələbələrlə iş üzrə fəaliyyət göstərən "SƏS" təşkilatının sədri, rezident Vafa Mohamed çıxış edərək ATU-da onlar üçün yaradılmış şəraitə və diqqət-qayğıya görə universitet rəhbərliyinə tələbələr adından təşəkkürünü bildirib.



## Allah rəhmət eləsin!

I Cərrahi xəstəliklər, Farmakologiya, Tibb və sağlamlıq elmləri təhsili kafedralarının əməkdaşları I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramova əzizi **Şahin Bayramovun** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II Mamalıq və ginekologiya kafedrasının kollektivi tibb elmləri doktoru, professor **Solmaz İsrafilbəylinin** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın assisenti Nərmin Bayramovaya atası **Şahin Bayramovun** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın baş müəllimi olmuş Naidə Niyazovaya anası **Xalidə xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Nevrologiya kafedrasının əməkdaşları kafedranın assistenti Türkan Sultanovaya atası **Ələkbərin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başlağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0001
Sayı 800